***Məhəbbət Tofiq qızı Paşayeva***
*tarix üzrə elmlər doktoru*
*ADİU "Humanitar fənlər" kafedrasının professoru,*
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi*
E-mail: pashayeva.m@gmail.com

# QRIZLARIN ETNİK TARİXİ VƏ ETNOQRAFİYASI

**Açar sözlər:** etnos, etnik tarix, etnik ənənə, mərasim, ayin

**Ключевые слова:** этнос, этническая история, этнические традиции, обряд, ритуал

**Key words:** ethnos, ethnic history, ethnic custom, ceremony, ritual

**Xülasə**

Qrızlar tarixi-etnoqrafik ədəbiyyatda "Şahdağ qrupu" və ya "Şahdağ xalqları" kimi təsnif edilən etnoslardan olub Azərbaycanın alban mənşəli qədim xalqlarından biridir. Quba rayonunun Qrız kəndi onların ən qədim yaşayış məskənlərindən biridir. Hazırda qrızlar kompakt halda əsasən Qubanın Qrız kəndində məskun olmaqla yanaşı, Quba bölgəsinin Qrız-Dəhnə, Çek, Əlik, Hapıt kəndlərində, həmçinin Xaçmaz rayonunun bir sıra kəndlərində də yaşayırlar.

Quba rayonunun Hapıt, Cek, Əlik və Yergüc kəndlərinin əhalisi də qrızlarla qohum etnik qruplardır və müvafiq olaraq qrız dilinin hapıt, cek, əlik, yergüc dialektlərində danışırlar. Qrız kəndi cek, əlik, hapıt və yergüclərin də ilkin yaşayış məskəni olmuşdur. Tədricən bu etnosların əcdadları Qrız kəndindən ayrılaraq Cek, Əlik, Hapıt, Yergüc kəndlərini salmışlar. Cek, Əlik, Hapıt, Yergüc kəndlərinin əhalisi Qrız kəndini əsas baş kəndləri kimi qəbul edirlər.

Qrızlar, eyni zamanda qrız etnosuna aid edilən hapıtlar, ceklər, əliklər, yergüclər Qafqaz Albaniyasında məskun olmuş qədim hər (er) tayfalarının varisləridir.

Təqdim edilən məqalədə qədim alban tayfalarının varislərindən olan qrızların, həmçinin qrız etnosuna aid edilən hapıt, cek, əlik və yerguclərin etnik tarixi, yayılma arealı, etnogenetik əlaqələri, etnik ənənələri və bir sıra mərasim ayinləri araşdırılmışdır.



***Qrızlar D.Yermakov, 1880***

Azərbaycanın etnik cəhətdən rəngarəng bölgələrindən olan Quba rayonunda, dəniz səviyyəsindən 2000 m yüksəklikdə, Şahdağın zirvəsində, bir-birindən möhtəşəm dağ silsilələri ilə ayrılan, sıldırım qayalıqlar və möhtəşəm konyonlarla əhatə edilmiş Xınalıq, Buduq, Qrız, Hapıt, Cek, Əlik, Yergüc kəndlərinin əhalisi- xınalıqlar, buduqlar, qrızlar və qrız etnosuna aid edilən hapıtlar, ceklər, əliklər, yerguclülər məskunlaşdıqları bölgəyə görə tarixi-etnoqrafik ədəbiyyatda «Şahdağ qrupu» və ya «Şahdağ xalqları» kimi təsnif edilməkdədir.

Hal-hazırda qrızlar kompakt halda Quba rayonunun Qrız, kəndi, həmçinin Xaçmaz rayonunun Hacı-qazma, Hacıəhməd oba, Hacı Qurban oba, Mançar oba, Şərif oba, Uzun oba, Yataq oba, Məçid oba, Yataq oba, Tikanlı oba, Nağı oba, Hacu Əbdulrəhim oba, Sibir oba, Molla oba, Ağaşirin oba, Pirqulu oba, Haçıməmməd oba, Ağaverdi oba, İdris oba, Fərzəli oba, Nəcəf oba, Diqəh oba, Şumaqir kimi kəndlərində yaşayırlar. Qrızlar Quba bölgəsinin Çek, Əlik, Hapıt, həmçinin Qrız-Dəhnə kəndində də məskundurlar. Qrız kəndini Qrız-Dəhnə kəndindən *Laçın beli* adlanan keçilməz yüksək qayalıq ərazi ayırır. Lakin belə sədd bu qohum kəndlər arasında ünsiyyətə mane ola bilməmiş, əksinə, özünəməxsus ünsiyyət vasitəsinə çevrilmişdir. Bu qayalıqların üstündə hər iki kənddən aydın görünən, biri yüksək, digəri isə bir qədər alçaq olan iki daş var. Qrızlar bu daşlara *Xoku daharbi (Çağıran daşlar)* deyirlər və yaxın zamanlaradək bu daşlar Qrız və Qrız-Dəhnə kəndi sakinləri arasında rabitə vasitəsi kimi istifadə olunmaqda idi. Xalq arasında bu daşların hündürü «xeyir daşı», bir qədər alçaq olanı isə «şər daşı» adlanır. Qrız və Qrız-Dəhnə kəndlərinin əhalisi xeyir-şər zamanı bu daşlardan bir-birini xəbərdar etmək məqsədilə istifadə edərdi. Belə ki, kəndlərdən birində, toy olardısa və ya yas düşərdisə, bir nəfər müvafiq daşın üstünə çıxaraq üzünü qarşı tərəfə tutub var səsi ilə hay salardı. Onun hansı daşın üstünə çıxmasından asılı olaraq, qonşu kənddə toy və ya yas olduğunu anlayardılar.

Qrız etnosuna aid edilən hapıtlar hazırda Qubanın Hapıt kəndində və İsmayıllı rayonunun Hacıhətəmli, Hapıtlı və Mollaisaqlı kəndlərində, ceklər Qubanın Cek kəndində, əliklər isə Əlik kəndində kompakt halda məskundurlar. Ceklər Cek kəndindən başqa Qubanın digər kəndlərində, Xaçmaz bölgəsində də sıx şəkildə məskunlaşmışlar. Qeyd etmək lazımdır ki, vaxtilə yergüclərin kompakt yaşadığı Qubanın Yegüc kəndi isə son illərdə tamamilə tərk edilmiş və bu kəndin sakinləri Xaçmaz rayonunda eyni adlı kənd salmışlar.

Quba rayonunun Qrız kəndi qrızların ən qədim yaşayış məskənlərindən biridir. Qeyd edək ki, qrızlarla bərabər, qrız etnosuna aid edilən hapıtlar, ceklər, əliklər də bu kəndi özlərinin baş kəndi sayırlar. Tarixi-etnoqrafik araşdırmalardan da məlum olur ki, Qrız kəndi qrızların olduğu kimi, cek, əlik, hapıtların da ilkin yaşayış məskəni olmuş, bu etnik qruplar tədricən Qrız kəndindən ayrılaraq Hapıt, Cek, Əlik kəndlərini salmışlar (1; 2). Hazırda da bu etnoslar aralarında müəyyən fərqlər olmasına baxmayarq bir xalq hesab olunurlar və Hapıt, Cek, Əlik, Yergüc kəndlərinin əhalisi öz mənşəyini Qrız kəndi ilə bağlayır. Qrız, Hapıt, Cek, Əlik kəndlərinə etnoqrafik səfərlərimiz zamanı yerli əhali bu faktı təsdiqləmişdir.

Qubanın qrızlar, hapıtlar, ceklər, əliklərin məskun olduğu Qrız, Hapıt, Cek, Əlik kimi qədim dağ kəndləri bölgənin ən çətin keçilən ərazilərində salınmışlar. Qudyalçayın sahilində Ağ dağın ətəyində, sıldırım qayalıqların üstündə salınmış Qrız kəndinə sıldırımlı dağ yolları, Qudyalçay, Qrız konyonu kimi təhlükəli kanyonlardan keçərək getmək olur. Hətta kəndə doğru uzanan daşlı-kəsəkli, çətin keçilən aşırımlardan birinə xalq arasında, bu yollarda vaxtilə atların nalının davam gətirmədiyi üçün «Mıxtökən» adını vermişlər**.** Qeyd etmək yerinə düşər ki, bu bölgədə ***Pirə Cala baba ziyarətgahı*** kimi tanınan yerdə hər zaman çoxlu at nalı olardı. Buna görə də bura çox zaman ***Nal piri*** də deyirlər. Əhalinin söylədiyinə görə, Qrız ərazisi çətin keçilən olduğu üçün burada tez-tez atların nalı düşərmiş**.** Qrız kəndində də keçmişdə nal

çox baha və tələbat olan bir əşya olduğu üçün yollarda tapılan nallar bu pirlərə gətirilib qoyulurmuş ki, ehtiyacı olan götürsün. Bu pirdə yüzlərlə belə at nalı var.

Cek kəndi isə Qudyalçayın bir qolu olan Ağçayın sol sahilində, ***Cek qayaları*** kimi tanınan yüksəklikdə, Xınalığa gedən yolun üzərində, Əlik, Buduq, Qrız, Yergüc kəndlərinin qonşuluğunda yerləşir. Bu kəndə də getmək üçün sıldırımlı aşıramları və dərin dərələri olan ***Çayqovuşan*** ərazisindən keçmək lazım gəlir. **Əlik** kəndi də dəniz səviyyəsindən təqribən 1500 metr yüksəklikdə, eyniadlı Əlik çayının sahilindəki çökəklikdə salınmışdır. ***Əlik*** sözü türk dillərində «dağ çuxuru, çökəklik» anlamını verən ***alık*** kəlməsindən yaranmışdır (3). Hazırda buradakı 50 evdə 300-dək əhali yaşayır. Əlik kəndinin şərqində yerləşən Yergüc kəndində isə hazırda heç kəs yaşamır. Kəndin son sakini burada 2006-cı ildə 110 yaşında vəfat etmişdir. Qubanın Haplt kəndi də bölgənin ən ucqar və keçilməz ərazisi olub Şahdağ kəndlərinə gedən yolda ən sonuncu kənddir, ondan sonra yaşayış məskəni yoxdur. Hapıta aparan yol Qubadan başlayaq Qudyalçay boyu uzanır. Hapıt kəndinə getmək üçün Əlik kəndinin içindən keçib getmək lazım gəlir. Əlik kəndindən sonra yol boyu bir neçə dəfə Əlikçaydan keçmək lazım gəldiyi üçün Hapıt kəndi bölgənin çətin keçilən ərazilərindir. Hapıt kəndi Ağçayın orta axınında, onun sol yamacında yerləşir. Hapıtdan o tərəfə kəndlər bitir və yaylaqlar başlayır. Hapıt kəndinin qərbində Boyük Qafqaz dağlarının ayırdığı İsmayıllı və Qəbələ rayonları yerləşir. Kənd əhalisinin bu rayonlarla hər zaman iqtisadi və etnoqenetik əlaqələri olmuşdur.

XIX əsrin 30-40-cı illərindən etibarən qrızlar, hapıtlar, ceklər, əliklər, yergüclər tədricən daha əlverişli, mülayim iqlimli Qəbələ, İsmayıllı, Xaçmaz, Ağdaş kimi bölgələrdə yerləşməyə başlamışlar. XIX əsrin müxtəlif dövrlərində Qrız kəndindən 39 oba ayrılıb. XIX əsr rus müəlliflərindən Zeydlis bu kəndlərin siyahısını tərtib etmişdir. Qeyd etmək lazımdır ki, Cek və Hapıtlı obalarını müəllif ayrı-ayrı qeydə almışdır (4, s.94). Qrız kəndindən dağətəyi bölgələrə köçən qrızlar demək olar ki, bütün yaşayış məskənlərinə öz nəsillərinin adını vermişlər XIX əsrdə Qrız kəndindən Hacməmməd oba, Ağaverdi oba, Pirqulu oba, Rüstəm oba, İbrahimxəlil oba, Baqi oba, Çinar tala, Manuçar oba, Girdə tala, Əhmədxan oba, Ovuclu oba, Hacıəbdürrəhim oba, Sibir oba, Ustaməmməd oba, Bala oba, Uzun oba, Hacı qazma, Hacı Əhməd oba, Şərif oba, Tikanlı oba, Hacı Qurban, Qala oba, Manaf oba, Qara bucaq, Ding oba kimi nəsillər ayrılaraq yeni məskənlər salmışlar (5,s.94-95). 1880-cı illər üçün Müşkür mahalında onlarla Qrız kəndi var idi. Bu bölgədə məskən salan 58 qrız nəslinin 35-i Qız kəndindən, 23-ü isə Cek kəndindən olanlar tərəfindən salınmışdı (4). Qeyd etmək lazımdır ki, yeni salınmış qrız kəndlərinin hər biri Qubanın Qrız kəndi ilə bağlarını heç bir zaman kəsməmişlər, onlar arasında mənəvi birlik, icma ittifaqı ənənələri bu günədək qalmaqdadır.

XIX əsrdə, xüsusilə də 1860-1880-cı illərdə hapıtların düzənlik bölgələrə miqrasiyası xüsusilə intensivləşmişdi. XIX əsrə aid mənbələrdə hapıtların Ərəş qəzasında Kür sahilindəki qışlaq yerləri barədə barədə məlumatlara rast gəlinir. 1880-cı illərdə Müşkür bölgəsindəki hapıt kəndlərində 1433 nəfər əhali qeydə alınmışdı. Qubanın ***Ibrahim hapıt, Dirşalı hapıt*** kimi kəndləri də hapıtların qədim yaşayış yerlərindən biri olmuşdu. XIX əsrdə hapıtlar Dirşali Haputda 10 ev, Şıx Hapıtda 37 ev, İbrahim hapıtda 89 ev olaraq qeydə alınmışlar (5, s.95). XIX əsrdə Quba qəzasındakı Dirşalı haput, çıx Haput, İbrahim Haput kəndlərindən Zülfüqar oba, Hacıməməd oba, Qədir oba, Şıx hapıt qışlağı, Məmədoba, Dədəli qışlağı kimi hapıt nəsilləri ayrılmışlar (5, s.94). XIX əsrin ortalarında haputların bir qismi Quba qəzasının Müşkür və Şabran mahallarında (indiki Xaçmaz rayonu), həmçinin Göyçay, Şamaxı qəzalarında Hapıt, Qaradağ Hapıt, Hapıtlı Məlikli, Şıx Hapıt, Dirşalı Hapıt, və s. adlı kəndlər saldılar (4, s.96-97). Goycay qəzasında isə 736 nəfər **haputlu** ailəsi Haputlu Melikli, Haputlu Mollaqasimli, Haputlu **Gideyli** kəndlərini salmışdılar (3). Gideyli kəndi Ismayilli Qəbələ arasinda Goycay cayinin üzerinde daglıq ərazidə yerləşirdi. Bu

gün hapıtların böyük bir qismi Quba rayonunun Haput rayonu ilə yanaşı İsmayıllı bölgəsinin Hacıhətəmli və Mollaisaqlı kəndlərində də yaşayırlar. Mollaisaxlı və Haçıhətəmli yaşayış məntəqələrinin sakinləri tədricən öz tarixi vətənləri – Haput kəndi ilə əlaqəni kəssələr də, hapıt dilindən geniş istifadə etməkdədirlər. Həmin yaşayış məntəqələrinin əhalisi XX əsrin əvvəllərində Hapıt kəndindən göçərək burada məskunlaşmış, əsasən maldarlıqla məşğul olmuşlar. İsmayıllı rayonu ərazisində aşkar edilmiş epiqrafik abidələrdən məlum olur ki, hapıtlar vaxtilə İsmayıllı rayonunun Qalacıq kəndinin ərazisində də yaşamışlar. Buradakı qədim Pirdavud məzarlığındakı bir sıra qədim baş daşlarındakı yazılarda "hapıt", "hapıtlı" etnoniminə rast gəlinməkdədir. Xaçmaz rayonunun Şıxhapıt kəndində, Qəbələnin Məlikli, Sileyli kəndlərində, Ağdaş rayonunun Hapıtlı, Ovculu kimi kəndlərində isə hapıtlar Azərbaycan türkləri ilə birlikdə yaşayırlar.

XIX əsrin əvvəllərinə aid miqrasiya meylləri Cek və Əlik kəndləri üçün də səciyyəvi olmuşdu. Belə ki, sosial-iqtisadi şəraitlə əlaqədar olaraq, ceklər və əliklərin də bir hissəsi əlverişli təbii iqlim şəraiti olan bölgələrdə – Xaçmaz, İsmayıllı, Qəbələ və Ağdaş rayonlarında məskən salmışlar. Statistik məlumata görə, XIX əsrdə baş vermiş həmin miqrasiya prosesləri nəticəsində Qrız, Cek, Əlik kəndlərində cəmi 1037 nəfər əhali qalmış, əvəzində isə Xaçmaz, İsmayıllı, Qəbələ və Ağdaş bölgələrində 23 yeni kəndi salınmışdı (4). Yeni ərazilərdə məskunlaşmış cek və əliklər haqqında ətraflı məlumat vermiş XIX əsr müəllifi, stitistik və etnoqraf Nikolay Zeydlis «1859-1864-cü illərdə Rusiya imperiyasının yaşayış məntəqələrinin Bakı quberniyası üzrə siyahısı» ilə baglı hesabatında vaxtilə Cek kəndinin 294 tüstüdən *(evdən)* ibarət olduğunu, sonralar buradan *Baqioba, Ağarəhimoba, Dəyirmanoba, Çuxuroba, Ağarzaoba, Əliməmmədoba, Xamuştəpələr, Sultanoba, Sultanmahmudoba, İbrahimoba, Ağalaroba, Həşimoba, Şıxıoba, Çobanoba, Rəhimoba, Qıraqlıoba, Müzəffəroba, Aşuroba, Almazqazmalar, Daşdəmiroba, Heydəroba, Ağarzaoba, Əbdüləziz oba, Əlimirzə oba, Əzizbəyoba, Ramazanoba, Mollaoba, Davudoba, Məlikoba, Şirinoba, Xırdaoymaq, Səfixanoba* kimi kiçik məhəllə-nəsillərin ayrıldığını qeyd etmişdir (5, s.94-95). Elə həmin mənbənin verdiyi məlumata əsasən, XIX əsrdə Əlik kəndindən ***Daldəlik,*** *Çanaxar, Məmərzabəyoba, Meyralıqışlağı, Hümmətiqışlağı, Yusufqışlağı, Əhmədxanqışlağı, Mollamahmudqışlağı, Mürsəliqışlağı* nəsillər yeni məskənlərə köç etmişlər.



***Ceklər (XIX əsrdə çəkilmiş fotoşəkillər. D.Yermakov, 1880)***

Qubanın Yergüc kəndindən də yerli əhalinin köcləri XIX əsrin 30-40-cı illərindən etibarən başlamışdır. Kənddən *gülxatınlılar, qarabığlılar* və *təhməzlilər* kimi bir sıra yergüc nəsilləri sosial-iqtisadi səbəblər üzündən tədricən qədim yaşayış məskənlərini tərk edərək, əsasən Xaçmaz bölgəsinə köç etmişlər. Yergüclülər öz kəndlərinin adını da Xaçmaza gətirərək burada eyniadlı Yergüc yaşayış məntəqəsini salmışlar. Qeyd edək ki, hazırda Yergüc kəndi tamamilə dağılmışdır və kənddə heç kəs yaşamır. Kəndin son sakini burada 2006-cı ildə 110 yaşında vəfat etmişdir. Yergüclər Quba rayonunun Davudoba, Xaçmazın Sərkərli, Armudpadar, Hacıəlibəy, Uzunoba kəndlərinə də yayılmışlar.

Qrızlar ***qrəzər mez*** adlandırdıqları qrız dilində danışırlar. Onlara qohum etnik qruplar sayılan cek, əlik, hapıtların yaşadığı Hapıt, Cek, Əlik, kəndlərinin sakinləri isə qrız dilinin müvafiq olaraq cek, hapıt, əlik dialektlərində danışırlar. Lakin bu dialektlər bir-birindən o dərəcədə fərqlənir ki, keçən əsrin əvvəllərində bəzi dilçi alimlər onları müstəqil dillər kimi də dəyərləndirirdilər (6. s.841). XIX-XX əsrə aid etnoqrafik və linqvistik ədəbiyyatda Qrız kəndi ilə bərabər, Hapıt, Cek, Əlik, hətta hazırda tamamilə tərk edilmişYergüc kəndinin də müstəqil dili olduğu qeyd edilməkdə idi (5, s. *199;* 7; 8, s.80). Lakin tədricən hapıt, cek, əlik və yergeclərin dilləri qrız dilinin lokal dialektləri olaraq qəbul edilmişdir (9, s. 545-559). Hazırda hapıtlar, cek, əlik yergüclər qrız etnosuna aid edilən və qrız dilinin haput, cek, əlik dialektində danışan subetnoslar olaraq tanınırlar. Ceklər öz dillərini *ceka mez,* əliklər özlərini ilaqar, dillərini isə ***ilaq dili*** adlandırırlar. Əliklər özlərinin qırız tayfalarından olduqlarını, dillərinin isə daha çox hapıt dilinə yaxın olduğunu söyləyirlər. Ümumiyyətlə, XIX əsrə aid mənbələrdə bütün Şahdağ xalqlarının dillərinin, ö cümlədən qrız, cek, hapıt dillərinin Qafqazın bütün məlum dillərindən fərqli olduğu, hətta bir-birindən də fərqləndiyi qeyd olunmuşdur (7,s.93). 2004-cü ildə fransız qafqazşünas tədqiqatçı Jil Otye də Qrız dilini tədqiq etmiş, qrız dilini Qafqaz dillərindən ayıraraq bu dilin tamamilə müstəqil dil olduğu qənaətinə gəlmişdir. Müəllif 2009-cu ildə Şahdağ kəndlərində, xüsusilə də Qrız, Əlik və Cek kəndlərində qrız dilini və onun dialektlərini araşdırmış fransalı qafqazşünas alim Jül Otye əlik dialektinə həsr olunumuş elmi əsər nəşr etdirmişdir (10). Hapıt dilində bu gün Quba bölgəsinin Hapıt, İsmayıllı rayonunun Mollaisaxlı və Haçıhətəmli kəndlərində danışırlar. Qrız dilinin hapıt və cek dialektlərindən bir neçə kənddə istifadə edilsə də əlik dialektində yalnız bir kənddə-Əlik kəndində istifadə edilir. Xaçmaz rayonun Yergüc kəndində yaşayan yergüclülər vaxtilə Yergüc dilində danışsalar da, Şahdağ ətrafındakı əsas kəndlərindən Xaçmaz ərazisinə köçdükdən sonra dillərini demək olar ki, unutmuşlar. Qrız dilinin yergüc dialektini yergüclülərin yalnız yaşlı nəsli xatırlayır.

Şahdağ xalqlarının əksəriyyəti kimi qrızlar, o cümlədən hapıtlar, cek, əlik, yergüclər də ikidillidirlər. Bu xalqların öz aralarındakı əsas ünsiyyət dili ana dilləri olmaqla bərabər, həm də Azərbaycan dilində danışırlar. Hələ XIX əsrdə İ.Qerber Şahdağ xalqları arasında ikidillilyin olduğunu qeyd edirdi. O yazırdı ki, onların hər biri, xüsusilə də buduq və əliklər Azərbaycan dilini yaxşı bilirlər (8.,s.80). Onlar ana dilini yalnız ailə-məişət ortamında istifadə edirlər. Şahdağ xalqları ictimai həyatda və yazılı ədəbiyyatda əsasən Azərbaycan dilindən istifadə edirdilər. Əsrlər boyu bu bölgədə bir-birilə qonşuluqda yaşayıb qohum olsalar da, həmçinin dilləri bir-birinə yaxın olsa belə Şahdağ xalqlarının öz aralarındakı ünsiyyət dili də məhz Azərbaycan dili olmuşdur.

Azərbaycanda yaşayan və Şahdağ qrupuna aid edilən digər etnoslar kimi qrızlar da kök etibarilə qədim alban tayfalarının varislərindən sayılırlar. Xalqın etnik özünüadlandırması onun mənşəyinin müəyyən edilməsində əsas faktorlardan biridir. Bu baxımdan qrızların və ona qohum qruplar olan hapıt, cek, əlik və yergüclərin etnik özünüadlandırması bu etnosların etnik tarixinin araşdırılmasına imkan verir. Bütün Şahdağ xalqları kimi qrızlar və ona qohum qruplar olan hapıt, cek, əlik və yergüclülərin özünüadlandırması fərqli şəkildə olsa, bu etnosların hər birinin etnik

özünüadlandırmasının bütün variantlarında ***hər(qər)*** etnonimi özünü büruzə verməkdədir. Məsələn, qrızların etnik özünüadlandırması ***qər****əz* (*qxərəz*) və ***qər****əzər* şəklindədir. Hapıtlar isə qrızları ***hər****əd*, buduqlar isə ***qər****əd* adlandırırlar. Bu etnik adların hər birində ***hər*** və ya ***qər*** etnonimi özünü aydın şəkildə göstərir. ***Hər*** etnonimi onun qrızlara qohum qruplar olan hapıt, cek, əlik və yergüclərin də etnik adlandırılmasında movcuddur. Belə ki, hapıtlar da qrızlar kimi öz kəndlərinin adı ilə tanınsalar da, özlərini ***hər*** adlandırırlar. Ceklər özlərinə *cəg və ya* ceg**ər**, əliklər isə özlərini ilaq**ar** adalandırır və bu adların hər birində ***–ar -ər (hər)*** etnonimi iştirak edir. Vaxtilə qrızların bir qrupunun yaşadığı Yergüc ***(Ər****güc)* kəndinin adında da fonetik dəyişikliyə uğramış **hər** etnonimi özünü biruzə verir. Qeyd etmək lazımdır ki, qrızlar indi də Yergüc kəndini elə ***Ər****güc* adlandırırlar. Qrızlar qonşu Şahdağ qrupuna aid edilən etnosların adının sonuna da öz dillərində tayfa bildirən -***ər*** şəkilçisi əlavə edirlər. Məsələn, buduqları *buduq****ər***, cekləri ***cegər,*** hapıtları isə *habud****ər*** çağırırlar. Onlara qohum tayfalar olan əliklər də hapıtlara ***horud,*** ceklərə isə ***her****ud* deyirlər. Hapıtlar da əlikləri *ilaq****ar,*** cekləri isə *ceg****ər*** adlandırır. Qrızlar, hörmətli kişilər mənasında *bəyər* kəlməsini də işlətməkdədirlər. Ceklərin və qrızların işlətdiyi ***bəy*** termini qədim müraciət formasıdır. Onlar çox hörmətli, ağsaqqal adama müraciət zamanı Azərbaycan türklərində olduğu kimi ***bəy*** deyirlər. Maraqlıdır ki, qrız və ceklər Azərbaycan türklərini ***azərbay*** adlandırırlar.

Qrız və ona qohum etnik qruplar olan hapıt, cek, əlik və yergüclərin hər birinin etnik adlandırmasındakı ***hər*** komponenti bu etnosların mənşəyinin Strabonun məlumat verdiyi Alban Tayfa İttifaqına daxil olan hər tayfaları ilə bağlılığını söyləməyə əsas verir. Bu etnosların etnik özünü adlandırma formaları ilə yanaşı yazılı mənbələrin və etnoqrafik materialların təhlili də, qrızlar və onların subetnosu olan hapıtların ceklərin əliklərin və yergüclərin qədim alban tayfalarından biri olan ***hər*** *(er)* tayfalarının dövrümüzə gəlib çatmış varisləri olduqlarını söyləməyə əsas verir. Hər *(er)* tayfaları erkən orta əsrlərdə Qafqaz Albanlyasında, xüsusilə də onun şimal-qərb ərazilərində *(müasir Şəki-Zaqatala bölgəsi)* Hereti, mahalında məskun olmuşlar. Hərlər Qafqaz Albaniyasının şimal–qərbində yaşayan alban tayfaları olmuşlar. Tədqiqatçılar hər tayfalarının məskunlaşma ərazisinin keçmişdə Kürün orta axarı bölgəsi, həmçinin Alazan və İori çayları vadisi olaraq qeyd edirlər (11;12, s.159). Bölgənin böyük və müfuzlu tayfalarından biri olduqları üçün hərlərin məskun olduğu bu ərazilər V əsrdən etibarən Hər havarlığı adı ilə məlum idi (13, s.40-41; 11, s. 4.) Erkən orta əsrlərdə hərlərin yaşadığı bu ərazilərdə - Qanıx və Qabırrı (İori və Alazan) çaylarının qovşağında Haranta şəhərinin yerləşdiyi qeyd olunur (14, s. 103; 167-169; 15, s. 315-316). XI əsrə aid mənbələrdə isə bu şəhər Hərnəburc adı ilə qeyd olunmaqda idi (15, s.171-176). Yenə də bu bölgədə (Zaqatala rayonu Zağ kəndi yaxınlığında) artıq XVI əsrə aid mənbədə Haranta şəhərinin dəyişikliyə uğramış forması olaraq Herem toponiminin adı qalmaqda idi (16, s.172). Göründüyü kimi hər toponimi bu bölgədə əsrlərlə qorunub saxlanmaqda idi.

Məlum oduğu kimi, erkən orta əsrlərdə Qafqaz Albaniyası, Xəzər Xaqanlığı, Sasani imperiyası, Ərəb xilafəti kimi Qədim Şərq dövlətləri arasında şiddətli döyüşlərin getdiyi müharibə meydanına çevrilmşdi. Mənbələrdə Ərəb-Xəzər müharibələri dövründə Qafqaz Albaniyasının dağılan şəhər və kəndləri ilə bağlı bir çox məlumatlar var. VIII əsrə aid mənbələrdə xəzərlərin Kür çayının şimal tərəfinə səpələnərək, Haband, Qelave, Şake, Biyes, Xeni, Kambeçan kimi bir çox Albaniya vilayətlərini tutması barədə də məlumat verilir (17., s.144). Mənbələrdə Alazan və İori çaylarının qovşağında yerləşən(şimal-qərb) və VII-VIII əsrlər boyu davam edən ərəb-xəzər müharibələri zamanı dağıdılmış bir çox alban vilayəti sırasında Hərənta (Hereti) nin də adı çəkilir (18, s. 48). 763-764 cü il ərəb-xəzər müharibələri ilə bağlı xəzərlərin tutduğu vilayətlər içərisində Er vilayətinin də adı çəkilirdi (19, c. 92). Mənbələrdə həmçinin Məskutlar olkəsi və orada

Ərgeşlər adlı toponim qeyd olunur (18, s.40). Bu toponimlər Hapıt, Buduq, Xınalıq və hazıra tərk edilmiş Şahdağ kəndlərinədn olan Ərgüc (Yergüc) kəndlərinin adı səsləşir. Görünür, erkən orta əsrlərdə iran, ərəb, xəzər basqınlarından qorunmaq üçün bu vilayətlərdə məskun olan hər, qat kimi alban tayfaları Tufan dağı, Bazar düzü kimi zirvələri aşaraq Qafqaz Albaniyasının şimal-qərbindən şimal-şərqinə keçərək ucqar keçilməz ərazilərdə Şahdağın ətəklərində məskən salmışlar. Müasir Şahdağ kəndləri ilə Qafqaz Albaniyasının şimal-qərb vilayətləri arasındakı tarixi və etnoqenetik bağların movcudluğunu bu bölgələrin bir-birinə ərazi yaxınlığının olması təsdiq edir. Şahdağ kəndlərini Qafqaz Albaniyasının bu tarixi vilayətinin yerləşdiyi ərazidən Tufan dağı, Baba dağ, Bazar düzü kimi yüksəkliklər ayırır. Bunu mənbələrlə yanaşı etnoqrafik materiallar da təsdiq edir. Bütün Şahdağ xalqları, o cümlədən də qrızlar və hapıtlar əcdadlarının "dagların o tayindan" ***Hərna*** şəhərindən gəldiklərini söyləyirlər. Yerli əhalinin dagın o tayi "adlandırdığı ərazi Tufan dagı, Bazar düzü adlanan zirvələrdir və bu dağların o tayında Azərbaycanın, həmçinin tarixi Albaniyanında şimal-qərb ərazilərində tarixi alban vilayəti Hereti yerləşirdi. Maraqlıdır ki, keçən əsrin 30-cu illərində Hapıt kəndində bir müddət tədqiqat aparmış A.N.Qenkonun məlumatına görə hapıtlar özlərinə "hereti" də deyirdilər (20, s.60). Xatırladaq ki, orta əsr mənbələrdə VII-VIII əsrlərdə baş vermiş ərəb-xəzər müharibələri zamanı dağıdılan ***Hərənta, Hərnaburc*** kimi alban toponimləri hapıtların əfsanəvi ***Hərna*** şəhərinin adı ilə səsləşir. Maraqlıdır ki, Türkiyənin Anadolu bölgəsində qədim oğuz boyları tərəfindən əsası qoyulan və qaraqoyunlu tayfalarının yaşadıqları Harput bölgəsinə xas olan türkülərdə də ***hər elinin*** və ***Haput diyarının*** adlarına rast gəlinir. Məsələn,

*Aş yedim yar əlindən*
*Gül dərdim **hər** elindən*
***Habut** diyar, **Habut** diyar.*
*Habudu, habudu **Habut** diyar...* (21).

XIX əsrə aid mənbələrdə və yerli əhalinin verdiyi məlumata görə, Azərbaycanın şimal-qərb hissəsindən Xınalıq, Qrız, Buduq ərazisinə Tufan dağı, Baba dağ, Bazar düzü kimi qarlı dağ aşırımlarından keçən yol olmuşdur (22, s.394). Yerli əhalinin söylədiklərindən məlum olur ki, XIX əsrə qədər Xınalıq, Buduq, Qrız, Hapıt kimi Şahdağın ətəklərində salınmış kəndlərin əhalisi dağların o tayı ilə, yəni Azərbaycanın şimal-qərb bölgəsi əlaqələrini kəsməmişdilər. İki bölgə arasındakı qarlı dağ yollarından biri (Oğuz bölgəsi) bu gün də «Haputuçuran» adlanır. Hələ qədim dövrlərdən bu kəndlərin Qafqaz Albaniyasının paytaxtı olan Qəbələ bölgəsi hər zaman iqtisadi və etnoqenetik əlaqələri olmuşdu. Yerli əhalinin də verdiyi məlumata görə, Hapıtdan Qəbələyə qısa dağ yolu da vardı. Şahdag kəndlərinə gedən yolda ən son kənd olann Hapıt kəndi ilə Qəbələ bölgəsi arasındakı «Bazar düzü» deyilən ərazi isə adından bəlli olduğu kimi, böyük ticarət mərkəzi kimi tanınırdı. Həm Quba, həm də Qəbələ bölgəsinin əhalisi buraya bazarlıq, mal mübadiləsi etməyə gələrdilər.

Hazırda da bütün Şahdağ xalqları kimi, qrızlar və ona qohum olan hapıtlar, ceklərin tarixi Qafqaz Albaniyası viləyətindən olan Hereti vilayətinin yerləşdiyi Şəki-Zaqatala bölgəsi əhalisi arasında ərazi yaxınlığından başqa, adət-ənənələr baxımından da oxşarlıqlar mövcuddur. Xüsusilə də Şəki-Zaqatala bölgəsində məskun olan saxur, ingiloyların, həmçinin Qəbələ rayonunun Nic kəndində yaşayan udilərin mərasim ayinlərində bir çox oxşarlıqlar var.

Yerli əhalinin dediyinə görə, vaxtilə Qrız kəndində dağ yəhudiləri də yaşamışlar. Rəvayətə görə, sasanilərin *dini təqiblərindən* qaçan yəhudilərə ilk olaraq, qrızlar sahib çıxıb, onlara sığınacaq vermişlər. Hətta yəhudilər guya, kəndin ətrafındakı mağaralarda qədim əlyazmalarını, müqəddəs kitablarını da gizlətmişlər. Yerli əhali burada yəhudi qəbristanlığının da qorunub-saxlanıldığını bildirir. Nəticədə, Qrız kəndində sığınacaq tapan yəhudilər hər zaman onun sakinlərinə böyük hörmətlə və minnətdarlıqla yanaşırlar. Bir

müddət sonra Quba xanı Fətəli xandan sığınacaq istəyən yəhudilər Qubanın Qaladüzü adlanan ərazisinə köçmüş, burada sonralar Qırmızı qəsəbə adlanan kəndlərini salmışlar. Hazırda da dağ yəhudiləri öz kəndlərində qrızları ən yaxın dost, ən əziz qonaq kimi qarşılayırlar. Bu iki etnosun nümayəndələri bir-birinə sıx-sıx gedib gəlirlər. Qrızlarla Qırmızı qəsəbədə yaşayan dağ yəhudiləri arasında həm də geniş ticarət əlaqələri olmuşdu.

Hapıt kəndinin əhalisi öz kəndlərinin tarixi ilə bağlı, bu ərazilərin vaxtilə övliyalar məskəni olduğu ilə də baglı rəvayət də söyləməkdədirlər. Deyilənə görə, kənddə əvvəlcə zahidlik edən tərki-dünya övliyalar yerləşmiş, sonralar əhali onların ətrafına köç etmişdi. Təsadüfi deyildir ki, hapıtlıları çox zaman ***şıx hapıtlı** (şeyx hapıtlı)* da adlandırılar. Haput kəndi digər Şahdağ kəndləri kimi müxtəlif pirlər və ziyarətgahlarla da zəngindir. Onların arasında ***Babadilim piri*** xüsusilə seçilir. Yerli əhali keçmişdə burada ağ geyimli möminlərin, övliyaların yaşadığını söyləyir. Tədqiqatlardan məlum olur ki, türbənin tarixi X-XI əsrlərə aiddir və sufilik mərkəzlərindən biri kimi fəaliyyət göstərmişdi (23). Babadilim ziyatərgahına nəzir kimi əsasən xalça gətirirlər. Hətta bəzən buranı «Xalça piri» də adlandırırlar. Ziyarətgahdakı alma ağacı da müqəddəs sayılır. Ziyarətə gələnlər onun budaqlarımdan müxtəlif parçalar da bağlayarlar. Bu piri ziyarət etmək üçün təkcə Qubadan deyil, ətraf rayonlardan da gəlirlər. Xalq arasında əsasən «dil açan pir» kimi tanınan ziyarətgahın ərazisində qədim məzarlıq da vardır.

Hapıt kəndində XVII-XVIII əsrlərə aid, hətta daha qədim dövrlərə aid qəbirlər qorunmaqdadır. Aparılan tədqiqatlar zamanı qədim yaşayış məntəqələrindən biri olan Əlik kəndinın də qədim məzarlıqlarında Xınalıq, Qrız kəndlərindən olduğu kimi bir neçə təbəqədən ibarət qəbirlər aşkar edilmişdir. Hapıt kəndindəki qədim qəbir abidələrində Alban mədəniyyəti üçün səciyyəvi olan astral inamlar və təbiət qüvvələri ilə bağlı simvolik işarələr bu günədək qorunmuşdur. Ərəb yazılarının da olduğu bu qədim qəbir daşlarında aypara, günəş rəmizlərinə rast gəlinməsi dinlərin sinkretizmindən xəbər verir. Kəndin qədim qəbristanlığında aşkar edilmiş bəzi qədim başdaşları üzərində Aypara təsviri ilə yanaşı, ərəb yazıları və Qafqaz Albaniyası üçün xarakterik olan nəbati və zoomorf naxışlar həkk olunmuşdur. İstər Qəbələ, İsmayıllı, istərsə də Quba bölgəsində yaşayan hapıtların və digər Şahdağ xalqlarının Kömrad, Babadağı kimi ümumi pirlərlərə gedərlər.

Digər Şahdağ yaşayış məntəqələrində olduğu kimi Cek kəndində də xeyli sayda, təqribən 25-dən çox qədim ziyarətgah və dini ibadət yerləri qalmaqdadır. Kəndin ən qədim ibadətgahlardan olan Əbu Müslüm məscidinin tikintisi islam dininin Azərbaycanda ilk yayılma mərhələsinə - VII-VIII əsrlərə aid edilir.



***Qrız kəndində Əbu Müslüm məscidinin qalıqları***



***Cek kəndindəki Əbu Müslüm məscidi***

Lakin bu ibadətgah həm arxitekturasına, həm də tərtibat elementlərinə görə ənənəvi məscidlərdən fərqlidir və islama qədər olan qədim inancların, xüsusilə də Günəş kultu ilə bağlı bir sıra elementləri qoruyub saxlamışdır. Sıldırım qayaların üzərində inşa edilmiş tikilinin üzərindəki ornamentlərdə Qafqaz Albaniyası xalqlarının hələ xristianlıqdan öncə tapındıqları Günəş kultuna aid sakral işarələrə rast gəlinir. Bu elementlər həmin tikilinin bənzəri olan və eyni adı daşıyan Xınalıq və Qriz məscidlərində də vardır. Etnoqrafik araşdırmalar bu ibadətgahların vaxtilə qədim Günəş məbədlərinin üzərində inşa edildiyini söyləməyə əsas verir (24, s.142-143).

Ceklərin adət-ənənələrində bütün Şahdağ xalqlarında olduğu kimi, Azərbaycanın şimal-qərb bölgəsində yaşayan əhali ilə, xüsusilə də alban mənşəli udilər, ingiloylarla, saxurlarla bir çox ortaq cəhətləri vardır. Məsələn, ceklərin də toy mərasimlərində bəyin və gəlinin dayısı mühüm rol oynayır. Qrızların, ceklərin bəzədilən şaxdan diri xoruz asılması ənənəsi Şəki-Zaqatala bölgəsində də icra edilməkdədir. Hətta ceklərin və udilərin dillərindəki bəzi kəlmələrdə də eyniyyət müşahidə edilir. Məsələn, ceklər də udilər kimi dayıya ***xalu,*** qutaba ***afar*** *(afara)* deyirlər. Bütün Şahdağ xalqları kimi qrızların əti kəndirdə qurudaraq qışa tədarük etməsi ənənəsi Şəki-Zaqatala bölgəsi üçün də səciyyəvidir. Ceklərin xaş *(bişirilmiş mal dırnağı)*, üyüdülmüş düyü, qoz və qovrulmuş buğdadan hazırlanan və çeynəmə adlanan milli yeməyi ingiloylarda qorqod adı ilə bilinir və mərasim yeməyi olaraq hazırlanır. Qeyd etmək lazımdır ki bu yemək Anadoluda kəşkük adlanır.



***Hapıt kəndi. Babadilim piri***

Qrızların etnik tarixi, etnoqrafiyası, məişət ənənələri, qədim dini-mifik dünyagörüşləri bütövlükdə Azərbaycan mənəvi mirasının zəngin ənənələrinin yadigarıdır. Azərbaycan etnomədəni mühitində formalaşaraq Azərbaycan xalqının etnik tarixində özünəməxsus yer tutmuş qrızların tarixi-etnoqrafik və folklor ənənələri bu etnosun Azərbaycan xalqının etnososial birliyinə daxil olan və Azərbaycan xalqının ümumalban mənşəyinə dayanan qədim soylardan olduğunu söyləməyə əsas verir. Bu ənənələr azərbaycanlıların keçmişi ilə bu günü arasında körpü yaradaraq ümumazərbaycan mədəniyyətinin, tarixinin varisliyinin dərin köklərini bir daha təsdiq edir. Xalqlar və mədəniyyətlər arasında qarşılıqlı canlı əlaqələrin mövcud olduğu Azərbaycanın tarixi təşəkkül prosesində iştirak edən hər bir etnos kimi qrızlar, həmçinin hapıtlar, ceklər, əliklər, yergüclər də ümumazərbaycan mədəniyyətinin ortaq ənənələrinə sahibdirlər və bütövlükdə Azərbaycan etnomədəni mühitində formalaşaraq Azərbaycan xalqının etnik tarixində özünəməxsus yer tutmuşlar.

## ƏDƏBİYYAT


1. Дешериев Ю.Д.Жизнь во мгле и борьбе: о трагедии репрессированных народов: Том 1. М.: Палея, 1995.
2. А. Мустафаев. Грызы – отголоски этнической истории Азербайджана. «Наследие», N 2 (38), 2009 г.
3. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, I c.Bakı-Şərq-Qərb, 2007
4. Зейдлиц Н., Списки населенных мест Российской империи". Бакинская губерния (по сведениям с 1859 по 1864 гг.). Т, 65. Тифлис. 1870
5. Списки населенных мест Российской Империи. По Кавказскому краю. Бакинская губерния. 1870 г.
6. Марр Н., «Яфетические языки». Большая советская энциклопедия. 1-е изд., т. 65.Москва, 1931
7. Кавказские языки // Энциклопедический словарь Брокгауза и Ефрона: В 86 томах (82 т. и 4 доп.). – СПб., 1890-1907
8. Гербер И.Г Описание стран и народов вдол западного берега Каспийского моря. 1728г. История, география и этнография Дагестана.. М.,1958.
9. Языки народов СССР: в 5 томах. Иберийско-кавказские языки. – М, 1967 Т.4.
10. Authier G. Grammaire kryz (Langue caucasique d'Azerbaïdjan, dialecte d'Alik). Paris: Peeters, 2009.
11. Меликсетбеков Л. М., Обзор источников по истории Азербайджана. Вып. II, Баку, 1939
12. Гейбуллаев Г., К этногенезу азербайджанцев. Баку.1994,
13. Армянская География VII века по Р.Х (приписывавшаяся Моисею Хоренскому) Пер. К.П. Патканова. СПб., 1877
14. Царевич Вахушти. География Грузии, Тифлис,1904
15. Папуашвили Т.Г. Вопросы истории Эрети. Тбилиси, 1970
16. Эфендиев О.А. Азербайджанское государство Сефевидов в XIV веке.Баку, 1981
17. Bünyadov Z., Azərbaycan VII-IX əsrlərdə. Bakı, Şərq Qərb. 2007
18. Aşurbəyli S., Şirvanşahlar dövləti VI-XVI əsrlər. Baki 2006
19. История халифов Вардаперта Гевонда, писателя VIII века. Пер. К. Патканова. СПб., 1862.
20. Qubadov Ə., Azərbaycan və Şahdağ dillərinin əlaqəsi. Filologiya elm.dok. alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dis.. Bakı.1992
21. Gülər. Z., Harput ağzı. Elaziğ. 1992
22. Бутков П.Г., Выдержки из «Проекта отчета о персидской экспедции в виде писем 1796» // ИГЕД М,1958.
23. Məşədixanım Nemət., Azərbaycanda pirlər, Bakı, 1992.
24. Mahabbat Pashayeva., The History and Ethnography of Shahdagh Peoples/ Baku: Univ. Chazar, 2014

***Махаббат Тофик кызы Пашаева***

## ЭТНИЧЕСКАЯ ИСТОРИЯ И ЭТНОГРАФИЯ КРЫЗОВ

### *РЕЗЮМЕ*

Грызы, являющиеся одним из древних этносов албанского происхождения, входят в «Шахдагскую группу», проживающую сейчас в Губинском районе Азербайджана. Несмотря на то, что главным и основным селением компактного проживания грызов является деревня Грыз Губинского района, они также обосновались в селениях Грыз-Дяхня, Джек, Алык, Хапыт этого же района и в нескольких деревнях Хачмазского района.

Деревня Грыз стала изначальным местом проживания таких родственных грызам этнических групп, как джеки, алыкцы, хапыты, йергуджы. Предки последних постепенно, покидая селение Крыз, создавали новые деревни с наименованиями, аналогичными своим этническими названиям таким, как Джек, Алык, Хапыт, Йергудж. Вышеуказанные этносы до сих пор связывают свое происхождения с деревней Крыз и говорят на диалектах крызского языка – хапыт, джек, алык, йергудж.

Вышеуказанные этносы – потомки древних племен гер (ер), населявших Кавказскую Албанию.

В представленной статье были исследованы этническая история, ареал распространения, этногенетические связи, этнические традиции и ряд обрядных церемоний потомков древних албанских племен – крызов и, в том числе их субэтносов – хапытов, джеков, алыкцев и йергуджев.

***Makhabbat Tofig gizi Pashayeva***

## THE ETHNOGRAPHY AND ETHNIC HISTORY OF KRYZ

### *SUMMARY*

The Qrız ethnos related to the Shahdag groups is the Azerbaijani ancient Albanian ethnos. Kryz village of Guba region is their main village. In spite of the fact that qrız compactly settled in the Kryz village, they also reside in the other Guba’s villages like Kryz, Dahne, Jek, Hapıt and also in the few villages of the Xacmaz district. The Kryz’s village also was the first resided place by the related to Kryz’s groups jek, alık, hapıt, yerguj

The ancestries of jeks, alıks, hapıts, yergujs separated from the Kryz village and established the same name villages: Jek, Alık, Hapıt, Yerguj. The above-mentioned ethnic groups also relate their origin with the village Kryz and speak of hapıt, jek, alık, yerguj dialects of the kryz language.

The Kryz’s are descendants of “her” (er) tribes resided in the Caucasian Albania.

This article searching the ethnic history, area of distribution, ethno genetic communication, ethnic customs and several cultic rituals of the **qrız** ethnic groups also related to **qrız** ethnos hapıts, jeks, alıks and yergurjs which are the heirs of the ancient Albanian tribes.